**“Dairə Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə”yə dəyişikliklər edilməsinə dair Mərkəzi Seçki Komissiyasının**

# QƏRARI

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 10 oktyabr 2007-ci il tarixli 6/16 saylı Qərarı ilə təsdiq edilmiş “Dairə Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə”nin struktur elementləri hissəvi olaraq “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 30-cu maddəsinə uyğunlaşdırılmaqla müvafiq dəyişikliklər edilməli və Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində həmin dəyişikliklərin rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 10 oktyabr 2007-ci il tarixli 6/16 saylı Qərarı ilə təsdiq edilmiş “Dairə Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə”yə aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı redaksiyada preambula əlavə edilsin:

“Bu Əsasnamə dairə seçki komissiyası Katibliyinin strukturunu, ştat vahidlərini, səlahiyyətlərini, onun əməkdaşlarının hüquq və vəzifələrini müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 34.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır”.

1.2. 1.2-ci bənd və 11-ci və 12-ci hissələr çıxarılsın.

1.3. 3-cü hissəyə “3.1. Katibliyin ştat vahidləri aşağıdakılardır:”, 4-cü hissəyə “4.1. Baş məsləhətçi aşağıdakı vəzifələri yerinə yetirir:”, 5-ci hissəyə “5.1. Böyük məsləhətçi (mühasib) aşağıdakı vəzifələri yerinə yetirir:”, 6-cı hissəyə “6.1. Aparıcı məsləhətçi (kompüter üzrə mütəxəssis) aşağıdakı vəzifələri yerinə yetirir:” məzmununda bəndlər əlavə edilsin və 2-ci-6-cı hissələr müvafiq olaraq nömrələnsin.

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |